# Azərbaycanda elmi fəaliyyətə görə təqib problemləri

Elmi, akademik fəaliyyətdə azadlıq hər bir cəmiyyətin intellektual və sosial inkişafının əsas sütunlarından biridir. Alimlərin, tədqiqatçıların və pedaqoqların sərbəst şəkildə araşdırma aparmaq, araşdırmalarının nəticələrini bölüşmək, həm ölkədaxili, həm də beynəlxalq elmi konfranslarda, simpoziumlarda iştirak etmək hüququ demokratik və hüquqi dövlət anlayışının mühüm tərkib hissəsidir. Azərbaycanda son illərdə elmi fəaliyyətlə məşğul olan bir çox şəxslərin müxtəlif formalarda təzyiq və təqiblərlə üzləşməsi məsələsi *Amnesty International, Human Rights Watch, Scholars at Risk* və *Avropa Parlamenti* kimi qurumların vaxtaşırı müzakirə mövzusuna çevrilmişdir. Bu qurumlar Qubad İbadoğlunu, Fazil Qasımovu, Bəhruz Səmədovu, İqbal Əbilovu və s. “siyasi motivli həbs”ə məruz qalmış elm xadimləri kimi tanıyır, lakin Azərbaycan hakimiyyəti bu iddiaları adəti üzrə qəbul etmir.

Elmi fəaliyyətə görə təqib dedikdə, alimlər və tədqiqatçıların apardıqları araşdırmaların mövzusu, əldə etdikləri nəticələr və ya ictimai mövqelərinə görə inzibati, hüquqi, institusional və ya qeyri-rəsmi təzyiqlərə məruz qalması nəzərdə tutulur. Elmi fəaliyyətə görə təzyiqlər adətən aşağıdakı formalarda həyata keçirilir:

1. işdən azad edilmə və ya vəzifədə irəliləmənin məhdudlaşdırılması;
2. elmi qrant və maliyyə imkanlarından kənarlaşdırılma;
3. tədqiqat mövzularına senzura tətbiqi;
4. ictimai nüfuzun zədələnməsi və media vasitəsilə təzyiq;
5. hüquqi və intizam məsuliyyəti ilə hədələnmə.

Diktaturanın hökm sürdüyü Azərbaycanda elmi fəaliyyətə görə təqiblərin artmasına bir sıra amillər təsir göstərir:

1. **Elmi fəaliyyətlə bağlı azadlıqların institusional zəifliyi**: ali təhsil və elmi müəssisələrdə müstəqil qərarvermə mexanizmlərinin məhdudluğu/olmaması.
2. **Mövzu həssaslığı**: siyasi, sosial, hüquqi və tarixi mövzular üzrə aparılan tədqiqatların, araşdırmaraların hakimiyyətin apardığı siyasətə risklər, təhlükələr yarada biləcəyinin hesab edilməsi.
3. **İdarəetmədə mərkəzləşmə**: elmi fəaliyyətin real qiymətləndirilməsində şəffaflığın və obyektiv meyarların çatışmazlığı/olmaması.
4. **Hüquqi mexanizmlərin yetərsizliyi**: alimlərin hüquqlarını qoruya biləcək mexanizmlərin zəif işləməsi.

Elmi fəaliyyətə görə əsassız siyasi təqiblər elmi tədqiqatların keyfiyyətinin və rəngarəngliyinin azalması, gənc alimlərin elm sahəsindən uzaqlaşması və ya ölkəni tərk etməsi, beynəlxalq elmi əməkdaşlıqların zəifləməsi və, ən əsası və ən təhlükəlisi, cəmiyyətdə tənqidi düşüncənin məhdudlaşması kimi dövlətə zərərli olan mənfi nəticələrə gətirib çıxarır. Azərbaycanda elmi fəaliyyətə görə siyasi təqiblər yalnız elm sahəsinə deyil, bütövlükdə cəmiyyətin inkişafına mənfi təsir göstərir. Elmi fəaliyyətdə azadlığın təmin olunması, alimlərin təhlükəsiz və sərbəst fəaliyyət mühitinin yaradılması ölkənin elmi potensialının tam reallaşması üçün zəruridir.

Azərbaycanda rəsmi olaraq “həbsdə olan alimlər” adlı ayrıca bir kateqoriya mövcud deyil. Lakin beynəlxalq insan hüquqları təşkilatları və müstəqil müşahidəçilərin hesabatlarında elmi və pedaqoji fəaliyyəti olan bəzi şəxslərin əsassız və gülünc ittihamlarla həbsdə olduğu qeyd olunur. Onların həbsi adətən cinayət, vergi, vəzifə səlahiyyətlərindən sui-istifadə və ya oxşar maddələrlə əsaslandırılır. Hüquq müdafiə təşkilatları isə bəzi hallarda bu həbslərin həmin şəxslərin tənqidi elmi mövqeləri, ictimai çıxışları, sosial-siyasi mövzulu araşdırmaları ilə əlaqəli olduğunu bildirirlər.

Azərbaycan Respublikasının da qoşulduğu və öhdəlik götürdüyü beynəlxalq sənədlərdə, o cümlədən BMT və UNESCO-nun tövsiyələrində elmi fəaliyyətdə azadlıq fundamental hüquq kimi tanınır. Bu sənədlərə əsasən, dövlətlər alimlərin sərbəst elmi fəaliyyətini təmin etməli, onları təzyiq və təqiblərdən qorumalıdır. Müqayisəli təhlillər alimlərin və tədqiqatçıların elmi fəaliyyətlərində azadlıqlarının yüksək səviyyədə qorunduğu ölkələrdə elmi tərəqqinin və sosial inkişafın daha sürətli baş verdiyi göstərir.

Hüquqi və demokratik dövlət olmaq yolu tutmuş ölkələrdə elmi fəaliyyətə görə siyasi təqiblərin qarşısı necə alınır? Akademik azadlıqları qoruyan hüquqi bazanın gücləndirilməsi ilə, elmi müəssisələrdə idarəetmənin şəffaf və müstəqil mexanizmlərlə təmin edilməsi ilə, alimlərin hüquqlarını müdafiə edən müstəqil qurumların yaradılması ilə, beynəlxalq elmi təşkilatlarla əməkdaşlığın genişləndirilməsi ilə.

Hər hansısa bir xırdamiqyaslı elmi araşdırmanın doğura biləcəyi qorxulu nəticələrdən çəkinən, zor və güc tətbiqi üzərində qurulmuş Azərbaycanın idarəetmə sistemi əlbəttə ki bu sahədə olan problemləri aradan qaldırmaq nə iqtidarında, nə həvəsində deyil. Axı bu dövlətin məqsədi təhsilin və elmin inkişafı yox, yazdığı, demirəm ciddi elmi məqalədə, hətta xırda bir tezisdə belə elmi fəaliyyətlə məşğul ola bildiyinə görə ölkə prezidentinə minnətdarlıq edən yaltaq, saxta “alimlər” yetişdirməkdir. Təsəvvürünüzə gətirirsiniz, beynəlxalq elmi konfransların tezislər toplumunu vərəqləyirsən, Azərbaycan alimlərinin tezisləri ölkə prezidentinə, vitse-prezidentə uzun-uzadı minnətdarlıqla başlayır. Elmi nəşrlərin hazırlanmasında qorunmalı olan ümumdünya alimlərinin qəbul etdiyi prinsiplərə zidd olaraq tezisdə, məqalədə önə çıxarılan elmi işin mahiyyəti yox, prezidentə, vitse-prezidentə yaltaqlıqdır. Azərbaycan elminin əsas mövzusu “Yaltaqlıq”dır! Öz elmi araşdırmasını utanmadan belə biabırçı şəkildə təqdim edən “alimlər” diyarına dövlət demək olarmı?! Elm və bugünkü Azərbaycan anlayışlarını eyni müstəviyə yerləşdirmək qeyri-mümkün məsələdir.

Çox vaxt eşidirik ki, guya Azərbaycan Şimali Koreyaya döndərilir. Şimali Koreyaya çoxdan “çatmışıq da”, hələ bir çox məsələlərdə “ötmüşük də”. Ona-buna az gülək, özümüzə dünyada gülməyən qalmayıb.

Diqqətinizə görə minnətdaram!

31.01.2026-cı il
Xatirə Cəbrayılova, Moskva